Azərbaycan Respublikasında İnsan Alverinə qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Birləşmiş Millətlər Təşkilatının "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasının və onu tamamlayan insan alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılmasına dair Protokolun müddəalarını nəzərə alaraq və bu sahədə beynəlxalq səyləri dəstəkləyərək Azərbaycan Respublikasında insan alveri cinayətlərinə qarşı mübarizənin gücləndirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında İnsan Alverinə qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Milli Fəaliyyət Planında göstərilən aidiyyəti icra hakimiyyəti orqanları ilə birlikdə müvafiq vəzifələrin həyata keçirilməsini təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.
4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 may 2004-cü il
№ 208

Azərbaycan Respublikası Prezidentinin
2004-cü il 6 may tarixli 208 nömrəli
Sərəncamı ilə
TƏSDİQ EDİLMİŞDİR

Azərbaycan Respublikasında İnsan Alverinə qarşı Mübarizə üzrə

MİLLİ FƏALİYYƏT PLANI

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsinin dövlətin ali məqsədi olduğunu qeyd edərək;

İnsan alverinin insan hüquqlarını pozduğunu, insan ləyaqəti ilə bir araya sığmadığını və insanların həyatı üçün ciddi təhlükə yaratdığını nəzərə alaraq;

İnsan alveri ilə bağlı fəaliyyəti qətiyyətlə pisləyərək və ona qarşı səmərəli mübarizəni ən yüksək səviyyədə təşkil etmək niyyətində olaraq;

İnsan alverinin qarşısının alınması və onunla mübarizə aparılması sahəsində beynəlxalq səylərdə fəal iştirak edilməsinin və insan alveri qurbanlarının müdafiəsinin təmin edilməsinin zəruriliyini qeyd edərək;

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq tətbiq edildiyini nəzərə alaraq;

Azərbaycan Respublikası tərəfindən 2000-ci il dekabrın 12-də imzalanan və 2003-cü il mayın 13-də Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilən BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasının və onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması" haqqında Protokolun, habelə 2002-ci il sentyabrın 20-də qəbul edilən "İnsan alverinin qarşısının alınması və ona qarşı mübarizə haqqında" Brüssel Bəyannaməsinin müddəalarını nəzərə alaraq;

Azərbaycan Respublikası İnsan Alverinə qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planını qəbul edir.

## 1. ÜMUMİ MÜDDƏALAR

Azərbaycan Respublikasında İnsan Alverinə qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı (bundan sonra "Milli Fəaliyyət Planı") insan alverinə qarşı mübarizədə müvafiq qurumların qarşılıqlı fəaliyyətinə imkan verən səmərəli sistemi təmin etmək məqsədi daşıyır. Milli Fəaliyyət Planı insan alverinə qarşı mübarizədə əsas vəzifələri, onların icra edilməsində müxtəlif qurumların (müvafiq icra hakimiyyəti orqanları, qeyri-hökumət təşkilatlan, beynəlxalq tərəfdaşlar və digər orqanlar) iştirakmı və bu qurumların fəaliyyətinin Milli Koordinator tərəfindən əlaqələndirilməsini nəzərdə tutur. Milli Fəaliyyət Planının səmərəliliyini mümkün dərəcədə artırmaq, o cümlədən insanların təhlükəsizliyini təmin etmək və məlumatları qorumaq məqsədilə Milli Fəaliyyət Planı iştirakçılarının öz vəzifələrini icra etməsi "yalnız zəruri məlumata malik olmaq" prinsipinə əsaslanır. Bu prinsipin tətbiq edilməsi iştirakçıların yalnız səlahiyyətləri daxilində Milli Fəaliyyət Planının icrasında iştirak etməsini təmin edir və Milli Fəaliyyət Planı iştirakçılarının korrupsiyaya məruz qalmasına və insan alveri cinayəti törədən şəxslərin iştirakçılara təsir edə bilməsinə qarşı səmərəli müdafiəni təmin etmək məqsədi daşıyır. Məhz buna görə Milli Fəaliyyət Planı "bütün məsələlərdən xəbərdar olan" qurumların yaradılmasını, eyni zamanda insan alverinə qarşı mübarizənin səmərəliliyinə zərər vuran və resursların məqsədsiz istifadə edilməsinə səbəb ola bilən bürokratik idarəçilik vasitələrini istisna edir.

Milli Fəaliyyət Planı insan alverinə qarşı mübarizədə digər ölkələrin təcrübəsindən istifadə edilməsini, beynəlxalq təşəbbüslərdə iştirak edilməsini, eləcə də insan alverinə qarşı mübarizə sahəsində fəaliyyət göstərən dövlət və qeyri-hökumət qurumlan, beynəlxalq təşkilatlar və digər tərəfdaşların əməkdaşlığını nəzərdə tutur.

Milli Fəaliyyət Planı insan alverinə qarşı mübarizənin bütün aspektlərini özündə birləşdirən və səmərəli surətdə əlaqələndirilə bilən sistem yaradılmasını müəyyən edir. Milli Fəaliyyət Planını dəstəkləmək niyyətində olan potensial donor tərəfdaşlar göstərəcəkləri konkret yardımın (texniki, fiziki, maliyyə və sair) istifadə edəcəyi münasib sahələri Milli Koordinator vasitəsilə müəyyən edə bilərlər. Milli Fəaliyyət Planı Milli Koordinatorun ümumi nəzarəti altında müvafiq dövlət və qeyri-hökumət resurslarının beynəlxalq təşkilatların və digər tərəfdaşların resursları ilə bir araya gətirilməsini və bu mənbələrdən lazımi vəsaitlərin əldə edilməsini nəzərdə tutur.

Milli Fəaliyyət Planının insan alverinə qarşı mübarizədə müəyyən etdiyi əsas tədbirlər qanunvericilik bazasının təkmilləşdirilməsi, Milli Koordinatorun təyin edilməsi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərkibində İnsan alverinə qarşı xüsusi polis qurumunun (bundan sonra "Xüsusi polis qurumu") yaradılmasından və insan alveri cinayətinin qurbanlarının və ehtimal olunan qurbanlarının (bundan sonra "qurbanların və ehtimal olunan qurbanların") müdafiəsinin təmin edilməsindən ibarətdir.

## 2. İNSAN ALVERİNƏ QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ QANUNVERİCİLİK BAZASININ TƏKMİLLƏŞDİRİLMƏSİ

Milli Fəaliyyət Planında müəyyən edilən vəzifələrin icrasının təmin edilməsi üçün aşağıda göstərilən tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

Azərbaycan Respublikası qanunvericiliyinin BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasına, onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokola və insan alverinə qarşı mübarizə sahəsində digər beynəlxalq sənədlərə uyğunlaşdırılması, o cümlədən bu sənədlərə uyğun olaraq insan alveri

əməlinin öz-özlüyündə cinayət kimi tanınması üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə dəyişikliklər edilməsi;

insan alveri cinayəti qurbanlarının zərər çəkmiş şəxs kimi tanınması və onların təhlükəsizliyini və digər hüquqlarını təmin edən normativ hüquqi aktların qəbul edilməsi;

insan alverinə qarşı mübarizənin əsas prinsiplərinin, onun təşkilinin əsaslarının, insan alverinə qarşı mübarizə aparan orqanların vəzifələrinin müəyyən edilməsi, insan alverinin profilaktikası, bu cinayətlərin qurbanlarının fiziki, psixoloji və sosial reabilitasiyası, habelə repatriasiyası və Milli Fəaliyyət Planında göstərilən digər tədbirlərin həyata keçirilməsini təmin etmək üçün İnsan alverinə qarşı mübarizə haqqında qanunun qəbul edilməsi.

## 3. MİLLİ FƏALİYYƏT PLANI İŞTİRAKÇILARININ FƏALİYYƏTİNİN ƏLAQƏLƏNDİRİLMƏSİ

Milli Fəaliyyət Planının həyata keçirilməsində müxtəlif dövlət və qeyri-hökumət qurumlarının, beynəlxalq təşkilatların və digər tərəfdaşların iştirakı nəzərdə tutulur.

Bu qurumlar arasında fəaliyyətin əlaqələndirilməsi Milli Koordinator tərəfindən həyata keçirilir. Fəaliyyətin əlaqələndirilməsinin məqsədi Milli Fəaliyyət Planı iştirakçılarının qarşılıqlı əməkdaşlığının vahid sistemini yaratmaq və bu qurumlar arasında məlumat mübadiləsini təmin etməkdir. İnsan alverinə qarşı mübarizənin həyata keçirilməsi üçün Milli Fəaliyyət Planı bir-birini tamamlayan aşağıda göstərilən vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur:

insan alveri cinayətləri ilə bağlı əməliyyat-axtarış fəaliyyətinin və cinayət təqibinin həyata keçirilməsi;

qurbanlarla əlaqə, onlara yardım və onların təhlükəsizliyinin təmin edilməsi və reabilitasiyası;

Milli Fəaliyyət Planına göstərilən dəstəyin əlaqələndirilməsi;

resursların koordinasiyası.

Milli Fəaliyyət Planı iştirakçılar üçün eyni zamanda müşahidə və qiymətləndirmə rolunu müəyyən edir. Müşahidə və qiymətləndirmənin məqsədi insan alverinə qarşı mübarizədə problemlərin müəyyən edilməsi və bu problemlərin müvafiq qurumların nəzərinə çatdırılmasıdır.

### a. İnsan alveri cinayətləri ilə bağlı əməliyyat-axtarış fəaliyyətinin və cinayət təqibinin həyata keçirilməsi

İnsan alveri cinayətləri ilə bağlı əməliyyat-axtarış fəaliyyəti və bu cinayətlərin təqibi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş orqanlar tərəfindən həyata keçirilir.

Əməliyyat-axtarış fəaliyyəti qurbanların və ehtimal olunan qurbanların həyatını, sağlamlığını, hüquq və azadlıqlarını müdafiə etmək məqsədilə həyata keçirilir.

İnsan alveri cinayətləri ilə bağlı əməliyyat-axtarış fəaliyyətinin vəzifələri həmin cinayətlərin qarşısının alınması, bu cinayətləri hazırlayan və ya törətmiş şəxslərin müəyyən edilməsi, insan alveri cinayətlərinin açılması, həmçinin qurbanlardan və ya ehtimal olunan qurbanlardan məlumatlar əldə edilməsindən ibarətdir.

İnsan alveri cinayətlərinin təqibi həmin cinayətlərin müəyyən edilməsi, insan alveri cinayəti törətmiş şəxsin ifşa olunması, zəruri olduqda prosessual məcburiyyət tədbirlərinin həyata keçirilməsi, ittiham irəli sürülməsi, bu ittihamın məhkəmədə müdafiə edilməsi, insan alveri cinayəti törətmiş şəxsə cəza təyin edilməsindən ibarətdir.

İnsan alverinə qarşı mübarizə aparan ixtisaslaşmış orqan qismində Xüsusi polis qurumu müəyyən edilir. Digər hüquq mühafizə orqanları insan alveri ilə bağlı hazırlanan cinayətlər haqqında məlumatlar əldə etdiyi təqdirdə təxirəsalınmaz tədbirlər görməklə Xüsusi polis qurumunu dərhal məlumatlandırır və ona lazımi kömək göstərir. İnsan

alverinə qarşı xüsusi polis qurumu həmçinin telefon yardım xətti, təhlükəsiz sığınacaq və əməkdaşlıq fəaliyyəti üzrə qeyri-hökumət təşkilatları (bundan sonra "QHT") üçün əlaqə orqanıdır.

Milli Koordinator insan alveri cinayətləri ilə bağlı əməliyyat-axtarış fəaliyyətinin və cinayət təqibinin daha səmərəli surətdə həyata keçirilməsi məqsədilə Xüsusi polis qurumu, təhlükəsizlik orqanları, sərhəd xidməti, polis, prokurorluq və digər hüquq mühafizə orqanları, habelə məhkəmələrlə lazımi əlaqələr qurur. Milli Koordinator zəruri hesab etdiyi hallarda digər dövlət və qeyri-hökumət qurumlan ilə əlaqələrini genişləndirə bilər. Azərbaycan Respublikasının dövlət və yerli özünüidarəetmə orqanlarının vəzifəli şəxsləri insan alveri cinayətləri ilə bağlı əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlara kömək göstərməyə borcludurlar.

Əməliyyat-axtarış fəaliyyətini və cinayət təqibini həyata keçirən orqanlar qurbanların repatriasiyasına qədər olan dövrdə və cəmiyyətə reinteqrasiyası zamanı onların təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görürlər.

İnsan alveri cinayətləri ilə bağlı əməliyyat-axtarış fəaliyyətini və cinayət təqibini həyata keçirən orqanlar beynəlxalq və xarici dövlətlərin hüquq mühafizə orqanları ilə əməkdaşlıq edirlər.

b. Qurbanlarla əlaqə, onlara yardım və onların təhlükəsizliyinin təmin edilməsi və reabilitasiyası

Qurbanlarla əlaqə, onlara yardım və onların təhlükəsizliyinin təmin edilməsi və reabilitasiyası Milli Koordinatorun əlaqələndirmə fəaliyyəti ilə aşağıdakı qurumlar tərəfindən həyata keçirilir:

Xüsusi polis qurumu;
mühafizə funksiyalarını həyata keçirən polis orqanları;
telefon yardım xətti üzrə QHT-lər;
təhlükəsiz sığınacaq üzrə QHT-lər;
əməkdaşlıq fəaliyyəti üzrə QHT-lər;
beynəlxalq tərəfdaşlar;
müvafiq icra hakimiyyəti orqanları.

Göstərilən qurumlar bu fəaliyyəti həyata keçirərkən qurbanlar üçün əlaqə vasitələrini (telefon yardım xətti və digər birbaşa təmas vasitələri) və təhlükəsiz sığınacaq daxilində onların təhlükəsizliyini və konfidensiallığını təmin edirlər. Zəruri hallarda bu qurumlar tibbi, psixoloji, hüquqi və digər yardımı təmin edirlər.

Bu qurumlar habelə qurbanların reabilitasiyası ilə bağlı müvafiq tədbirləri həyata keçirir və qurbanların, həmçinin şahidlərin təhlükəsizliyinin təmin edilməsi üçün müvafiq tədbirlər görürlər. Göstərilən vəzifənin icra edilməsinə digər beynəlxalq tərəfdaşlar cəlb edilməklə onların yardımından istifadə edilə bilər.

c. Milli Fəaliyyət Planına göstərilən dəstəyin əlaqələndirilməsi

Milli Fəaliyyət Planına göstərilən dəstəyin əlaqələndirilməsi Milli Koordinator tərəfindən həyata keçirilir. Dəstəyin əlaqələndirilməsinin məqsədi beynəlxalq tərəfdaşların köməyi ilə Milli Fəaliyyət Planı iştirakçıları üçün yüksək peşəkar təlimi və praktiki yardımı təmin etməkdir. Bu vəzifənin həyata keçirilməsi həmçinin Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün lazımi vəsaitləri təmin edəcək və son nəticədə Milli Fəaliyyət Planının davamlılığının və səmərəliliyinin qorunmasına kömək göstərəcəkdir.

ç. Resursların koordinasiyası

Resursların koordinasiyasının məqsədi Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi zamanı zəruri ehtiyacları təmin etməkdir.

Resursların (informasiya, metodiki, təşkilati, maddi, konsultativ və sair) koordinasiyası Milli Koordinator tərəfindən həyata keçirilir. Milli Koordinator dövlət və qeyri-hökumət qurumlarının, beynəlxalq təşkilatların və digər tərəfdaşların yardımını koordinasiya edir və belə resursların əldə edilməsi üçün onlara müraciət edir.

## 4. MİLLİ KOORDİNATOR

Milli Koordinator Milli Fəaliyyət Planının həyata keçirilməsi üzrə məsul şəxsdir və aşağıda göstərilən funksiyaları həyata keçirir:

Milli Fəaliyyət Planında müəyyən edilmiş vəzifələrin icrası məqsədilə əlaqələndirmə fəaliyyətinin həyata keçirilməsi;

Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsində müvafiq iştirakçıların müəyyən edilməsi;

insan alverinə qarşı xüsusi polis qurumunun fəaliyyətinə nəzarət edilməsi;

Milli Fəaliyyət Planı iştirakçıları ilə mütəmadi əlaqələrin saxlanması və digər orqanlarla əməkdaşlığın təşkil edilməsi;

Milli Fəaliyyət Planının icrasından irəli gələn tələbatların müəyyən edilməsi və onların həll edilməsi üçün müvafiq tədbirlərin görülməsi;

Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün müvafiq dövlət və qeyri-hökumət qurumlarının, beynəlxalq təşkilatların və digər tərəfdaşların yardımının əlaqələndirilməsi;

"yalnız zəruri məlumata malik olmaq" prinsipinə riayət etməklə müvafiq orqanların məlumatlarla təmin edilməsi;

Milli Fəaliyyət Planının icrasından irəli gələn məsələlərin həll edilməsi məqsədilə iştirakçıların mütəmadi görüşlərinin təşkil edilməsi;

insan alverinə qarşı mübarizənin vəziyyəti ilə bağlı məlumatların verilməsi;

Milli Fəaliyyət Planında nəzərdə tutulan vəzifələrin icrası üçün digər funksiyaların həyata keçirilməsi;

## 5. İNSAN ALVERİNƏ QARŞI XÜSUSİ POLİS QURUMU

Milli Fəaliyyət Planında göstərilən vəzifələrin səmərəli surətdə icrası üçün lazımi təlim keçmiş və müvafiq avadanlıqlarla təchiz edilmiş ixtisaslaşmış qurumun yaradılması tələb olunur.

İnsan alverinə qarşı xüsusi polis qurumunun yaradılmasına olan ehtiyac aşağıda göstərilən amillərdən irəli gəlir:

qurbanların və ehtimal olunan qurbanların təhlükəsizliyinin təmin edilməsi;

qurbanlarla əlaqə və onlara peşəkar yardım göstərilməsi;

informasiyanın vahid mərkəzdə cəmlənməsi və qorunması;

insan alverinə qarşı mübarizənin xüsusi təlim keçmiş peşəkar polis əməkdaşları və lazımi avadanlıqla təchiz edilmiş polis qurumu tərəfindən həyata keçirilməsi.

İnsan alverinə qarşı xüsusi polis qurumunun əməkdaşları əsasən aşağıdakı məsələlər üzrə təlim keçirlər:

qurbanlardan və digər mənbələrdən qanunvericiliklə müəyyən edilmiş qaydada məlumatların, sənədlərin və digər əşyaların əldə edilməsi, təhlili və sübut qismində təqdim edilməsi;

qurbanlar və ehtimal olunan qurbanların müəyyən edilməsi üsulları;

müəyyən müşahidə üsullarından və texniki vasitələrdən istifadə edilməsi;

qurbanlar və ehtimal olunan qurbanlarla davranış qaydaları.

İnsan alveri ilə bağlı cinayət İşləri üzrə araşdırma aparılarkən toplanan məlumatların qeydə alınması və istifadəsi üçün vahid məlumat bazası yaradılır.

İnsan alverinə qarşı xüsusi polis qurumu birbaşa Milli Koordinatora tabedir.

İnsan alverinə qarşı mübarizə aparan hüquq mühafizə orqanları Xüsusi polis qurumu ilə qarşılıqlı əlaqələrin təmin edilməsi məqsədilə əlaqələndirici qismində fəaliyyət göstərən və insan alveri ilə mübarizə üzrə təlim keçmiş əməkdaşlarını müəyyən edir.

Xüsusi polis qurumu insan alverinə qarşı mübarizə sahəsində xarici dövlətlərin hüquq mühafizə orqanları ilə əlaqələrini Milli Koordinator vasitəsilə qurur.

Xüsusi polis qurumu qurbanların və ehtimal olunan qurbanların müəyyən edilməsi və müdafiə edilməsi ilə yanaşı, həmçinin insan alveri cinayəti üzrə səlahiyyətləri daxilində əməliyyat-axtarış fəaliyyətini və cinayət təqibini həyata keçirir. Şəxsin insan alveri qurbanı olması ehtimal edildikdə, yaxud insan alveri cinayəti törətməsi və ya hazırlaması digər orqanlar tərəfindən aşkar edildikdə, bu barədə Xüsusi polis qurumuna dərhal məlumat verilməli, müvafiq sənədlər ona təqdim edilməli və zəruri kömək göstərilməlidir. Xüsusi polis qurumu qurbanları və ya ehtimal olunan qurbanları təhlükəsiz sığınacaqda yerləşdirir və mühafizə funksiyalarım həyata keçirən polis orqanı ilə birlikdə onların təhlükəsizliyini təmin edir.

## 6. TƏHLÜKƏSİZ SIĞINACAQ VƏ TELEFON YARDIM XƏTTİ

Təhlükəsiz sığınacaqla təmin etmənin məqsədi qurbanları, ehtimal olunan qurbanları, həmçinin şahidləri müdafiə etmək, onlara kömək göstərmək, həmin şəxslərin lazımi ehtiyaclarını təmin etmək və bu şəxslər üçün təhlükəsiz mühit yaratmaqdır. Təhlükəsiz sığınacaq həmçinin reabilitasiya və reinteqrasiya tədbirlərinin həyata keçirilməsi üçün əlverişli şəraiti təmin edir. Eyni zamanda təhlükəsiz sığınacaq öz repatriasiyasını gözləyən qurbanlar, habelə sübutlar təqdim edən şahidlər üçün təhlükəsiz mühiti təmin edir.

Qurbanların və ehtimal olunan qurbanların təhlükəsiz sığınacaqda yerləşdirilməsi və saxlanılması qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Təhlükəsiz sığınacaq aşağıda göstərilən şərtlərə cavab verməlidir:

müvafiq yaşayış şəraitinin olduğu və etibarlı mühafizə edilən bina;
telefonla danışmaq imkanı;
tibbi yardım almaq imkanı;
hüquqi yardım almaq imkanı;
tərcüməçinin yardımından istifadə etmək imkanı;
söhbət aparılması üçün ayrıca yer;
sığınacaqda yerləşdirilən şəxslər barəsində məlumatların məxfi saxlanılması.

Təhlükəsiz sığınacaqla təmin edilən mühitdə Xüsusi polis qurumunun əməkdaşları tərəfindən (zəruri hallarda hüquqi yardım göstərən şəxsin iştirakı ilə) qurbanların və ehtimal olunan qurbanların işinə dair ilkin araşdırma aparılır. Sığınacaq heç bir halda azadlıqdan məhrum etmə yeri hesab edilməməlidir. Sığınacaq və oradakı şəxslərin təhlükəsizliyi Xüsusi polis qurumu və mühafizə funksiyalarını həyata keçirən polis orqanı tərəfindən həyata keçirilir. Sığınacağın təhlükəsizliyinin təmin edilməsi vəzifəsini həyata keçirən şəxslər lazımi təlim keçir. Təhlükəsiz sığınacaqda olan şəxslərlə qurbanlar və ya ehtimal olunan qurbanlar kimi davranılmalıdır. Təhlükəsiz sığınacaqda xidmət və oradakı şəxslərə yardım göstərilməsi xüsusi təlim keçmiş QHT-lər tərəfindən həyata keçirilir.

Telefon yardım xətti insan alveri cinayətinin qurbanlarına və potensial qurbanlarına xidmət edən pulsuz və daim fəaliyyət göstərən əlaqə xidmətini təmin etmək məqsədilə yaradılır. Telefon yardım xəttində işləyən şəxslər Xüsusi polis qurumu ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərirlər. Telefon yardım xəttində xidmət və bu xətdən istifadə edən şəxslərə yardım göstərilməsi xüsusi təlim keçmiş QHT-lər tərəfindən həyata keçirilir.

## 7. MAARİFLƏNDİRMƏNİN HƏYATA KEÇİRİLMƏSİ

İnsan alverinin doğurduğu təhlükələr haqqında ictimaiyyəti maarifləndirmək və məlumatlandırmaq məqsədilə müvafiq tədbirlər həyata keçirilir.

Maarifləndirmə və məlumatlandırma tədbirlərini həyata keçirən qurumlar insan alverinin, habelə qanunsuz miqrasiyanın mahiyyəti və onların doğurduğu təhlükələr barədə cəmiyyəti hərtərəfli məlumatlandırmaq və maarifləndirmək üçün tədbirlər görürlər. Maarifləndirmə və məlumatlandırma Milli Fəaliyyət Planının bütün iştirakçıları tərəfindən həyata keçirilir.

## MİLLİ FƏALİYYƏT PLANI ÜZRƏ TƏDBİRLƏR

| Sıra №-si | Tədbirin adı | İcra orqanı [1] | Məqsəd və gözlənilən nəticələr | İcra müddəti |
|---|---|---|---|---|
| 1 | İnsan alverinə qarşı mübarizə sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi | Nazirlər Kabineti<br>Ədliyyə Nazirliyi<br>Daxili İşlər Nazirliyi<br>Respublika Prokurorluğu<br>Milli Təhlükəsizlik Nazirliyi | İnsan alverinə qarşı mübarizənin gücləndirilməsi üçün hüquqi bazanın təmin edilməsi | |
| | | | Azərbaycan Respublikasının qanunvericiliyinin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı BMT Konvensiyası, onu tamamlayan Protokollar və insan alverinə qarşı mübarizə sahəsində digər beynəlxalq sənədlərə uyğunlaşdırılması, bu sənədlərə uyğun olaraq insan alveri əməlinin öz-özlüyündə cinayət kimi tanınması üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə dəyişikliklər edilməsi məqsədilə qanun layihəsinin hazırlanması | İyul 2004 |
| | | | İnsan alverinə qarşı mübarizənin əsas prinsiplərinin, onun təşkilinin əsaslarının, insan alverinə qarşı mübarizə aparan orqanların vəzifələrinin müəyyən edilməsi, insan alverinin profilaktikası, bu cinayətlərin qurbanlarının fiziki, psixoloji və sosial reabilitasiyası, habelə repatriasiyası və Milli Fəaliyyət Planında göstərilən digər tədbirlərin həyata keçirilməsini təmin etmək üçün İnsan alverinə qarşı mübarizə haqqında qanun layihəsinin hazırlanması | İyul 2004 |

| | | | | |
|---|---|---|---|---|
| 2 | Milli Koordinatorun təyin edilməsi | Daxili İşlər Nazirliyi | Azərbaycan Respublikasının daxili İşlər Naziri tərəfindən Milli Koordinatorun təyin edilməsi | May 2004 |
| | | | Milli Fəaliyyət Planında göstə-rilən vəzifələrin icrasının təmin edilməsi | Mütəmadi |
| 3 | Milli Fəaliyyət Planı iştirakçılarının fəaliyyətinin əlaqələndirilməsi | Milli Koordinator<br>Daxili İşlər Nazirliyi<br>Milli Təhlükəsizlik Nazirliyi<br>Xarici İşlər Nazirliyi Ədliyyə Nazirliyi<br>Dövlət Sərhəd Xidməti<br>Dövlət Gömrük Komitəsi | Milli Koordinatorun rəhbərliyi ilə Milli Fəaliyyət Planı iştirakçılarının qarşılıqlı əməkdaşlığının təşkil edilməsi | Mütəmadi |
| | | | Milli Fəaliyyət Planı iştirakçıları arasında məlumat mübadiləsinin təmin edilməsi | Mütəmadi |
| | | | İnsan alveri cinayəti qurbanla-rını müəyyən edən qurumlar tərəfindən həmin şəxslərin dərhal və maneəsiz Xüsusi polis qurumuna təhvil verilməsi qaydalarının hazırlanması | İyun 2004 |
| 4 | İnsan alveri cinayəti qurbanları ilə əlaqə, onlara yardım və onların təhlükəsizliyinin təmin edilməsi və reabilitasiyası | Milli Koordinator<br>Daxili İşlər Nazirliyi İnsan alverinə qarşı xüsusi polis qurumu<br>Milli Təhlükəsizlik Nazirliyi<br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br>Səhiyyə Nazirliyi<br>Ədliyyə Nazirliyi | İnsan alveri cinayəti qurbanları üçün mümkün və zəruri əlaqə vasitələrinin (telefon yardım xətti və digər birbaşa tomas vasitələri) və təhlükəsiz sığınacaq daxilində onların təhlükəsizliyinin və konfidensiallığının təmin edilməsi | Mütəmadi |
| | | | İnsan alveri cinayəti qurbanlarının repatriasiya və reinteqrasiyası ilə bağlı tədbirlərin həyata keçirilməsi və bu prosesdə qurbanların, həmçinin şahidlərin təhlükəsizliyinin təmin edilməsi | Mütəmadi |
| | | | İnsan alveri cinayəti qurbanları ilə əlaqə, onlara yardım və onların təhlükəsizliyinin təmin edil-məsi və reabilitasiyası vəzifəsini həyata keçirən qurumların səlahiyyətlərinin müəyyən edilməsi | İyun 2004 |
| | | | İnsan alveri cinayətinin qur-banları və ehtimal olunan | Mütəmadi |

| | | | | |
|---|---|---|---|---|
| | | | qurbanları üçün psixoloji, tibbi, hüquqi və digər yardımın təmin edilməsi | İyun 2004 |
| | | | İnsan alveri cinayəti qurbanları ilə əlaqə, onlara yardım və onların təhlükəsizliyinin təmin edilməsi və reabilitasiyası ilə bağlı tədbirlərin həyata keçirilməsində iştirak edəcək QHT-lərin müəyyən edilməsi | Mütəmadi |
| | | | İnsan alverinə qarşı xüsusi polis qurumu, immiqrasiyanı idarə edən orqanlar və digər hüquq mühafizə orqanlarının əməkdaşları üçün insan alveri cinayəti qurbanlarının müəyyən edilməsi üsulları üzrə təlim keçilməsi | |
| 5 | İnsan alveri cinayətləri ilə bağlı əməliyyat-axtarış fəaliyyətinin və cinayət təqibinin həyata keçirilməsi | İnsan alverinə qarşı xüsusi polis qurumu<br>Milli Koordinator<br>Hüquq mühafizə orqanları | İnsan alveri cinayətlərinin aşkar edilməsi və açılması, həmin cinayətləri törədən və hazırlayan şəxslərin müəyyən edilməsi, cinayət təqibinin həyata keçirilməsi, habelə həmin cinayətlərin qurbanları və ehtimal olunan qurbanlarından məlumatlar əldə edilməsi | Mütəmadi |
| | | | İnsan alveri cinayəti qurbanları ilə və onların fəaliyyət göstərdiyi mühitdə çalışacaq QHT-lərin seçilməsi | İyun 2004 |
| | | | İnsan alveri cinayətləri ilə bağlı əməliyyat-axtarış fəaliyyətinin və cinayət təqibinin həyata keçirilməsi ilə əlaqədar təlim keçilməsi | Mütəmadi |
| | | | İnsan alveri cinayətləri ilə bağlı əməliyyat-axtarış fəaliyyətinin və cinayət təqibinin həyata keçirilməsi ilə əlaqədar beynəlxalq və xarici dövlətlərin hüquq mühafizə orqanları ilə əlaqələrin qurulması | Mütəmadi |
| 6 | Resursların koordinasiyası | Milli Koordinator | Milli Koordinator tərəfindən dövlət və qeyri-hökumət qurumlarının, beynəlxalq | |

| | | | | |
|---|---|---|---|---|
| | | | təşkilatların və digər beynəlxalq tərəfdaşların yardımının koordinasiyası və belə resursların əldə edilməsi üçün müraciət edilməsi | |
| | | | Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin təşkili prosesində zəruri ehtiyacların təmin edilməsi | Mütəmadi |
| | | | Milli Fəaliyyət Planının maliyyələşdirilməsi və onun davamlılığının təmin edilməsi üçün tədbirlərin görülməsi | |
| 7 | Milli Fəaliyyət Planına göstərilən dəstəyin əlaqələndirilməsi | Milli Koordinator | Milli Fəaliyyət Planının lazımi vəsaitlə təmin edilməsi, onun davamlılığının və səmərəliliyinin qorunması, həmçinin Milli Fəaliyyət Planı iştirakçıları üçün beynəlxalq tərəfdaşların köməyi ilə yüksək peşəkar təlimin və praktiki dəstəyin təmin edilməsi | Mütəmadi<br>İyun 2004 |
| | | | Dəstəyin əlaqələndirilməsinin həyata keçirilməsi üçün müvafiq QHT-lərin və İnsan alverinə qarşı xüsusi polis qurumunun nümayəndələrinin seçilməsi | |
| 8 | İnsan alverinə qarşı xüsusi polis qurumunun yaradılması | Daxili İşlər Nazirliyi Milli Koordinator | İnsan alverinə qarşı mübarizə üzrə ixtisaslaşmış və təlim keçmiş polis qurumunun yaradılması | İyun 2004 |
| | | | İnsan alveri cinayətləri ilə bağlı əməliyyat-axtarış fəaliyyətinin və cinayət təqibinin ixtisaslaşmış qurum tərəfindən həyata keçirilməsi, insan alveri cinayətinin qurbanlarının və ehtimal olunan qurbanlarının təhlükəsizliyinin təmin edilməsi | Mütəmadi |
| | | | İnsan alverinə qarşı xüsusi polis qurumunun müvafiq bina və avadanlıqla təmin edilməsi (beynəlxalq tərəfdaşlarla əməkdaşlıq çərçivəsində) | İyun 2004 |
| | | | İnsan alverinə qarşı xüsusi | İyun 2004 |

| | | | | |
|---|---|---|---|---|
| | | | polis qurumunun səlahiyyətlərinin müəyyən edilməsi | İyun 2004 |
| | | | İnsan alverinə qarşı xüsusi polis qurumunun əməkdaşları üçün təlim tələbatlarının müəyyən edilməsi | Mütəmadi |
| | | | İnsan alverinə qarşı xüsusi polis qurumunun əməkdaşları üçün təlimlərin keçirilməsinin təşkil edilməsi | |
| 9 | Ödənişlərdən azad olan (pul-suz) telefon yardım xəttinin təşkili | Milli Koordinator Daxili İşlər Nazirliyi İnsan alverinə qarşı xüsusi polis qurumu Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Milli Təhlükəsizlik Nazirliyi | İnsan alveri cinayətinin qurbanlarına və potensial qurbanlarına pulsuz xidmət edən və həftənin bütün günləri 24 saat ərzində fəaliyyət göstərən telefon yardım xəttinin təşkil edilməsi | İyun 2004 |
| | | | Telefon yardım xettinin yer və avadanlıqlarla təmin edilməsi | İyun 2004 |
| | | | Telefon yardım xəttində çalışan operatorların səlahiyyətlərinin və fəaliyyət şərtlərinin müəyyən edilməsi | İyun 2004 |
| | | | Telefon yardım xəttində çalışan operatorlarla təlim keçirilməsi | Mütəmadi |
| | | | Telefon yardım xettinin təhlükəsizliyinin və telefon yardım xəttindən istifadə edən şəxslərin konfidensiallığının təmin edilməsi üçün tədbirlərin görülməsi | Mütəmadi |
| | | | Telefon yardım xətti barədə ictimaiyyətin məlumatlandırılması | Mütəmadi |
| 10 | Təhlükəsiz sığınacağın təşkili | Milli Koordinator Daxili İşlər Nazirliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi İqtisadi İnkişaf Nazirliyi Səhiyyə Nazirliyi Ədliyyə Nazirliyi | İnsan alveri cinayətinin qurbanlarının və ehtimal olunan qurbanlarının, habelə şahidlərin təhlükəsizliyinin təmin olunması üçün sığına-cağın təşkil edilməsi | İyun 2004 |
| | | | Təhlükəsiz sığınacağın yer və avadanlıqlarla təmin edilməsi (beynəlxalq tərəfdaşlarla əməkdaşlıq çərçivəsində) | İyun 2004 |
| | | | Təhlükəsiz sığınacaqda | |

| | | | | |
|---|---|---|---|---|
| | | | xidmət edən QHT-lərin səlahiyyətlərinin və fəaliyyət şərtlərinin müəyyən edilməsi | İyun 2004 |
| | | | Təhlükəsiz sığınacaqda xidmət edən QHT-lər və təhlükəsiz sığınacağın təhlükəsizliyini təmin edən polis əməkdaşları ilə təlim keçirilməsi | Mütəmadi |
| | | | Təhlükəsiz sığınacaqda insan alveri cinayətinin qurbanlarına və ehtimal olunan qurbanlarına tibbi, psixoloji, hüquqi və digər yardımın göstərilməsinin təşkil edilməsi | Mütəmadi |
| 11 | Milli Fəaliyyət Planının həyata keçirilməsi üçün donor yardımının təmin edilməsi | Milli Koordinator<br>Daxili İşlər Nazirliyi<br>Xarici İşlər Nazirliyi | Milli Fəaliyyət Planının həyata keçirilməsi üçün donorların müəyyən edilməsi | May 2004 |
| | | | Donor yardımının təmin edilməsi məqsədilə müvafiq tədbirlərin ardıcıl surətdə və vaxtında icra edilməsi | Mütəmadi |
| | | | Donorlar tərəfindən göstərilən yardımın (texniki, fiziki, maliyyə və sair) istifadə ediləcəyi sahələrin müəyyən edilməsi | İyun 2004 |
| 12 | Maarifləndirmənin həyata keçirilməsi | Milli Koordinator<br>Daxili İşlər Nazirliyi<br>Təhsil Nazirliyi<br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br>Gənclər və İdmanNazirliyi<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi<br>Kütləvi informasiya vasitələri [2] | Monitorinq və qiymətləndirmə mexanizmlərinin müəyyən edilməsi | İyun 2004 |
| | | | İnsan alverinin mahiyyəti və təhlükəsi, qanunsuz miqrasiyanın doğurduğu təhlükələr barədə ictimaiyyətin məlumatlandırılması | |
| | | | Milli Fəaliyyət Planının məqsəd və mahiyyətinin ictimaiyyətə çatdırılması | |
| | | | İnsan alverinə qarşı mübarizə haqqında filmlərin nümayiş etdirilməsi | Mütəmadi |
| | | | İnsan alverinə qarşı mübarizəyə dair maarifləndirici vasitələrin hazırlanması | |
| | | | Maarifləndirmə tədbirlərinin səmərəliliyinin artırılması üçün müvafiq icra hakimiyyəti | |

| | | | | |
|---|---|---|---|---|
| | | | orqanları, kütləvi informasiya vasitələri və QHT-lər üçün təlimlərin təşkili | |
| 13 | Milli Fəaliyyət Planının həyata keçirilməsində qeyri-hökumət təşkilatları, beynəlxalq təşkilatlar, insan hüquqları üzrə müvəkkil (Ombudsman) və digər tərəfdaşlarla əməkdaşlıq | Milli Koordinator | Milli Fəaliyyət Planının beynəlxalq tərəfdaşlara təqdim olunması<br><br>Milli Fəaliyyət Planında göstərilən vəzifələrin həyata keçirilməsi üçün qeyri-hökumət təşkilatlarının, beynəlxalq təşkilatların və digər tərəfdaşların cəlb edilməsi | May 2004<br><br>Mütəmadi |